QUSAR KЪИАР
23 may 2020-ci il
№ 6 (7647)
İCTİMAİ-SİYASİ QƏZET · ИЖТИМАИ-СИЯСИ ГАЗЕТ
gusarpress.com
Qəzet 1932-ci ildən çıxır
TƏSİSÇİ: QUSAR RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ APARATI VƏ REDAKSİYANIN KOLLEKTİVİ

# Cümhuriyyət qurucularının yolu örnəkdir

## Korrupsiyaya bulaşmış məmur bizimlə yol yolçusu ola bilməz!




**İstiqlal Bayramı–** Respublika Günü ərəfəsindəyik. Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 102-ci ildönümü tamam olur. 1918-ci ildə xalqımızın görkəmli oğullarının qurduqları Cümhuriyyət Azərbaycan tarixinin şanlı səhifəsidir. Müsəlman Şərqinin ilk demokratik, parlamentli dövləti xalqımızın milli mənlik şüurunu özünə qaytardı, Azərbaycan xalqının öz müqəddəratını təyin etməyə qadir olduğunu dünyaya nümayiş etdirdi.

1918-ci ilin 28 mayında Azərbaycan Milli Şurasının Tiflisdə keçirilmiş iclasında qəbul olunan "İstiqlal Bəyannaməsi"ndə deyilirdi:

***"Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyətə malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir;***

***Müstəqil Azərbaycan Dövlətinin idarə forması Xalq Cümhuriyyətidir;***

***Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir;***

***Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir;***

***Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır".***

Xalq Cümhuriyyəti cəmisi 23 ay ömür sürərək 1920-ci ilin 28 aprelində süqut etsə də, tariximizdə silinməz yeri, Azərbaycan xalqının istiqlal arzusu, müstəqil dövlətçilik salnaməsi qalmışdı.

Hər zaman fəxrlə deyə bilərik ki, 1991-ci ildən başlayaraq xalqımızın həyatında bir çox müsbət dəyişikliklər baş vermiş, müstəqilliyimiz daha da möhkəmlənmiş, respublikamız hərtərəfli dinamik inkişaf yoluna çıxmışdır. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyasının məntiqi davamı olaraq Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət idarəçiliyinin bütün istiqamətlərini əhatə edən hüquqi, institusional və kadr islahatları yeni, fərqli bir mərhələdə ölkəmizin inkişafına, tərəqqisinə, demokratikləşməsinə yönəlib.

Bu sayımızın 2-ci səhifəsində Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət, hökumət və hərbi xadimlərinin portretlərini veririk. Onların Vətən, xalq, millət yolunda mübarizəsi, həyat tərzi, davranışı, kabinetlərini ata evi, dövlət vəsaitini dədə malı kimi düşünənlərə görk, nümunə olmalıdır.

Bu gün hər bir məmurun fəaliyyəti haqqında dövlətdə kifayət qədər məlumatlar var və son vaxtlar keçirilən korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirlərinin genişlənməsi dövlətin hər bir sahəsindəki fəaliyyəti nəzarətdə olduğunu göstərir. Ölkə başçımızın söylədiyi kimi korrupsiyaya bulaşmış məmur bizimlə yol yolçusu ola bilməz.

Bu gün müstəqil tariximizə istiqlal bayramını yazdırmış şəxsiyyətlərimizi, Cümhuriyyətin qurucularını rəhmətlə anır, xatirələrini minnətdarlıq hissi ilə yad edirik.

Müstəqilliyimiz sarsılmaz, dövlətimiz əbədi, sərhədləri bütöv olsun! İstiqlal bayramınız mübarək!




***Əziz bacı və qardaşlar!***

Sizi müqəddəs Ramazan bayramı münasibəti ilə təbrik edir, Allahın lütf və bərəkətinin Sizlərdən əskik olmamasını arzulayırıq.

İndi dünyamız, bəşəriyyət taclı virus adlanan qorxunc epidemiya ilə mübarizə aparır. İnanırıq ki, müsəlman bacı və qardaşlarımızın ay boyu qıldıqları namazlar, onların duaları insaniyyətin xilasına yol açacaq, bəşər övladları bundan sonra, xəstəliklərə, müharibələrə, düşmənçiliyə, kin-küdurətə son qoymaq üçün birgə yollar arayacaqlar.

Bayramı ailə içində keçirməyinizi tövsiyə edir, əziz bayram günündə ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyünün müdafiəsi uğrunda şəhid olmuş qəhrəman oğul və qızlarımızın xatirəsini, pandemiyadan dünyaların dəyişənləri yad edərək, hamısına rəhmət, onların yaxınlarına, bütün xalqımıza səbr diləyirik.

Ramazan bayramınız mübarək olsun!

***Qusar Məscidinin Dini İcması***

# Bu məhdudiyyətlər qüvvəsini saxlayır

***Nazirlər Kabineti xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə qərar verib.***

***Qərarla müəyyən edilib ki, 2020-ci il 31 may saat 00:00-dək Azərbaycan Respublikasının ərazisində tətbiq edilən xüsusi karantin rejimi dövründə aşağıdakı məhdudiyyətlər qüvvəsini saxlayır və həmin məhdudiyyətlərdən başqa, digər iş, xidmət sahələrində və istiqamətlərdə fəaliyyətə icazə verilir:***

- yük daşımaları istisna olmaqla, ölkə ərazisinə yerüstü və hava nəqliyyatı ilə giriş-çıxışın dayandırılması;
- xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəzabərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinə və Abşeron rayonuna giriş-çıxış və ölkənin digər şəhər və rayonlarından yerüstü və hava nəqliyyatı ilə sərnişin daşımalarının dayandırılması;
- bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması;
- Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda dövlət orqanlarında (qurumlarında) xüsusi iş rejimində işə cəlb edilən işçilərin say həddinin Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən məhdudlaşdırılması;
- "ASAN xidmət" və "DOST" mərkəzləri istisna olmaqla, digər dövlət orqanlarında (qurumlarında) vətəndaşların yerində qrup və fərdi qaydada qəbulunun dayandırılması;
- dəfn mərasimləri istisna olmaqla, dini ritual xidmətləri, eləcə də mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin təşkili və keçirilməsinin qadağan olunması;
- bütün kütləvi tədbirlərin, o cümlədən mədəni-idman tədbirlərinin keçirilməsinin dayandırılması;
- tədbirlərin təşkili üzrə xidmətlərin, o cümlədən bu sahədə müştərinin evində və ya digər məkanlarda ad günləri, toy, nişan və bu kimi mərasimlərin təşkilinin qadağan olunması;
- qrup halında fərdi tədris və repetitor xidmətlərinin (o cümlədən bu sahədə evlərdə xidmət) dayandırılması;
- ictimai yerlərdə, o cümlədən küçələrdə, bulvarlarda, parklarda və digər yerlərdə şəxslərin 10 nəfərdən artıq qruplarda cəmləşməsinin qadağan olunması;
- istirahət və əyləncə məkanlarının, həmçinin uşaq əyləncə məkanlarının (bulvar və parkların ərazisindəki daxil olmaqla) fəaliyyətinin dayandırılması;
- muzey və sərgi zalları istisna olmaqla, digər mədəniyyət obyektlərinin, eləcə də kinoteatrların, teatrların, idman zallarının fəaliyyətinin dayandırılması;
- nəzdindəki ərzaq mağazaları, apteklər və müştəri ilə təmasda olmayan obyektlər istisna olmaqla, ölkə ərazisində iri ticarət mərkəzlərinin fəaliyyətinin dayandırılması;
- ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadənin qadağan olunması;
- Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə ictimai iaşə məkanlarında, eləcə də restoran, kafe və çay evlərində bütün müştərilərə saat 18:00-dan 08:00-dək yerində xidmətin dayandırılması;
- tibb müəssisələrində müalicə alan şəxslərin xəstə yaxınları tərəfindən ziyarətinin qadağan edilməsi;
- idman, sağlamlıq-bərpa üzrə xidmətlərin dayandırılması (bu sahədə tibbi xidmətlər istisna olmaqla);
- masaj və hamam xidmətlərinin göstərilməsinin dayandırılması.

# CÜNÜMÜZÜN QƏHRƏMANLARI:ƏKİB-BİÇƏNLƏR!

***Bu ilin yaz aylarında havaların nisbətən soyuq və yağıntılı keçməsi əkinlərin gecikməsinə səbəb olsa da, karantin rejiminin tələblərinə uyğun yaşam tərzinə alışan kənd əməkçiləri yazlıq əkinini başa çatdırmaqdadırlar. Mayın 1-dək rayonun təsərrüfatlarında 2953 hektar sahədə yazlıq bitkilər əkilmişdir. Yazlıq bitkilərin 1747 hektarını kartof, 579 hektarını tərəvəz bitkiləri, 20 hektarını yəlmir, 151 hektarını dənli paxlalılar, 365 hektarını qarğıdalı, (65 hektarı dən üçün) 111 hektarını coxillik otlar təşkil edir. Keçən ilin eyni dövrü ilə müqayisədə 132 hektar sahədə kartof, 24 hektar çox tərəvəz əkilmişdir. Tərəvəz bitkiləri arasında daha çox sarımsaq, kələm, xiyar, pomidor və baş soğan əkininə üstünlük verilib.***




**İyirmi** altı il qabaq ailə üzvlərinin pay torpaqlarını birləşdirib fərdi fermer təsərrüfatı yaradan düztahirli fermer Qurban Qurbanov əsasən toxum istehsalı ilə məşğuldur. Keçən il onun yetişdirdiyi zəmilərdən "Qobustan" buğda sortu üzrə hər hektardan 45, "Qarabağ-22" və "Cəlilabad-19" arpa sortları üzrə 40 sentner toxumluq taxıl götürüb.

Fermer Azərbaycanda taxılçılığın və taxıl toxumçuluğunun inkişafında oynadığı rola, yüksək məhsuldarlıq göstəriciləri əldə etdiyinə, nümunəvi fermer təsərrüfatları yaratdığına, taxıl biçinində aktiv iştirakına, məhsulun itkisiz yığımını təmin etdiyinə görə 10 fermer, toxumçu və mexanizatora Kənd Təsərrüfatı Nazirliyinin təşəkkürnaməsi təqdim olunub.

Qurbanovlar ailəsi bu il daha yaxşı göstəriciyə nail olmaq əzmindədir. Pandemiyanın yaratdığı fəsadlara baxmayaraq əkin və zəmilərə qulluq işlərinə fasilə verilməyib. Cari ilin məhsulu üçün "Qobustan" buğda sortu üzrə 300, "Qarabağ-22" arpası üzrə 150 hektarda toxumluq taxıl yetişdirilib. Ailənin 11,5 hektarlıq kartof tarlası da bol məhsuldan xəbər verir. Burada əkilən "Əmirli-600" sort kartof məhsuldarlığı, dad keyfiyyəti ilə seçilir.

Vatsap vasitəsi ilə əlaqə yaratdığımız zaman fermer torpaq qayğılarından, taclı virusun yaratdığı narahatlıqdan danışdı, ölkənin ərzaq qıtlığı ilə üzləşməməyi üçün işin hər bir sahədə yeni tələblərə uyğun qurulmasının, mütəxəssislərin tövsiyələrinə ciddi riayət edilməyinin vacibliyini dilə gətirdi.

Təcrübəli fermerə, rayonun bütün taxılçılarına qarşıdakı əkin mövsümündə uğurlar diləyirik.

***"QUSAR"***




**Quxurobalı** Aşurovlar nəslinin nümayəndələri rayonun iqtisadiyyat, səhiyyə, təhsil, mədəniyyət, kənd təsərrüfatı sahələrində peşəkalıqları, nümunəvi fəaliyyətləri ilə seçilirlər. Kənd təsərrüfatı mütəxəssisi Abdulcabbar kişinin payına ata osağını qorumaq, əkib-bicmək, qurub-yaratmaq qisməti düşüb.

Ailənin öhdəsində 1,4 hektar 3-4 illik, 0,60 hektar 8-10 illik məhsulverən fındıq, 1,00 hektar meyvə bağı vardır. Son illərdə bağlara aqrotexniki qaydalara ciddi riayət etməklə qulluq göstərən ailənin zəhməti hədər getməyib:1000-1300 kiloqram quru fındıq, 45 ton meyvə məhsulu yığılıb.

Fermer təsərrüfatının başçısı deyir: -Dövlətdən hər hektara görə 240 manat subsidiya yardımı alıram ki, bunun 25 faizini (60 man) nəğd formada, qalan 75 faizini isə mineral gübrələr və dərman vasitələri formasında.

Eyni zamanda həm arı ailələrinə (hər arı ailəsinə 10 manat) və həm də süni mayalandırılmış inəklərdən alınan sağlam buzovların hər birinə görə 100 manat ödənilir. Ailəmizin isə 15 arı ailəsinə və 5 baş sağmal inəyə qulluq göstərdiyinin nəzərə alsaq, dövlətdən aldığımız yardıma görə narazı qalmağa haqqımız yoxdur. Dövlətin biz fermerləri dəstəkləməsi bizi daha ruhlandırır, çalışırıq ki, kənd təsərrüfatı məhsullarının bolluğu üçün səylərimizi əsirgəməyək.

Aşurovlar bütün təsərüfat işlərini ailə üzvləri ilə birlikdə görür. Əlavə işçi qüvvəsinə ehtiyac yalnız məhsul yığımı vaxtı duyulur ki, onda da həmkəndliləri işə cəlb olunur.

Uğurlar olsun sizə, qurub-yaradan, bolluq yaradan əllərinizə sağlıq!

***"QUSAR"***

*...Biz Azərbaycanın milli azadlığı, istiqlaliyyəti uğrunda, Azərbaycanda demokratik respublika yaranması uğrunda mübarizə aparanları, demokratik dövlətin təşkil olunmasında iştirak edənləri, onun rəhbərliyində fəaliyyət göstərənləri–Məmməd Əmin Rəsulzadəni, Fətəli Xan Xoyskini, Əlimərdan bəy Topçubaşovu, Nəsib bəy Yusifbəylini, Həsən bəy Ağayevi, Məmmədhəsən Hacınskini və başqalarını böyük minnətdarlıq hissi ilə yad edirik.*

**Heydər ƏLİYEV, ümummilli lider**

## Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət, hökumət və hərbi xadimləri


Məhəmməd Əmin Rəsulzadə (1884-1955)


Əlimərdan bəy Topçubaşov (1862-1934)


Fətəli xan Xoyski (1875-1920)


Nəsib bəy Yusifbəyli (1881-1920)


Həsən bəy Ağayev (1875-1920)


Aslan bəy Səfikürdski (1880-1937)


Xosrov Paşa bəy Sultanov (1879-1941)


Məmmədhəsən Hacinski (1875-1931)


Xəlil bəy Xasməmmədov (1875-1947)


Əliağa Şıxlinski (1863-1943)


Səməd bəy Mehmandarov (1856-1931)


Azərbaycan Cümhuriyyətinin 4-cü hökumət kabineti. 1919-cu il

# İSTEDADLI HƏKİM, PEDAQOQ, BACARIQLI SƏHİYYƏ TƏŞKİLATÇISI

***Müdriklərdən biri deyib ki, həkimlik peşəsi öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir işdir. Azərbaycan Tibb Universitetinin daxili xəstəliklər kafedrasının professoru, tibb elmləri doktoru, Əməkdar müəllim Sərvər Nəriman oğlu Alimetov da uzun illər ərzində insanların sağlamlığı keşiyində dayanmaqla onların sevgisini qazanan bir həkim, həm də bu peşənin sirlərini gənc nəslə həvəslə, yorulmadan öyrədən müəllim, alim kimi cəmiyyətdə böyük nüfuz qazanıb.***



**Yaşı** artıq 80-ə çatmış Sərvər Alimetov tibb elminin ən müxtəlif sahələrində mühüm uğurlar əldə edib, ürək-damar, ağciyər, mədə-bağırsaq, qaraciyər, öd kisəsi, böyrək, oynaq, qan, endokrin və allergik xəstəliklər üzrə geniş profilli terapevt alim kimi tanınıb. Düzgün diaqnoz müəyyənləşdirmək məsələsi isə onun hər zaman mühüm önəm verdiyi məsələlərdən biri olub.

S. Alimetov 1940-cı il mart ayının 12-də Qusar rayonunun Düztahir kəndində dünyaya göz açıb. Uşaqlığı İkinci dünya müharibəsi dövrünə təsadüf edib. Belə bir ağır şərait isə ona hər cür zəhmətə qatlaşmaq, əməksevərlik, vətənpərvərlik, el-obaya dərindən bağlılıq, təhsilə böyük həvəs, insanlara qayğı kimi müsbət keyfiyyətlər aşılayıb.

Düztahir kənd orta məktəbi həmin vaxtlar Qusarda "kənd akademiyası" adlanırdı. Burada o zaman tətbiq olunan vahid mütərəqqi proqram üzrə qabaqcıl fənlər yüksək ixtisaslı və təcrübəli müəllimlər tərəfindən tədris edilir, ciddi nizam-intizam diqqətdə saxlanılır, güclü təlim-tərbiyə işi aparılır, şagirdlərə vətənpərvərlik hissi aşılanırdı. Sərvər Alimetov da belə bir təhsil müəssisəsini 1956-cı ildə qızıl medalla bitirərək, yüksək balla N. Nərimanov adına Azərbaycan Tibb İnstitutunun (indiki Tibb Universitetinin) pediatriya fakültəsinə daxil olur. 1962-ci ildə ali təhsilini əla qiymətlərlə başa çatdırdıqdan sonra institutun uşaq cərrahiyəsi kafedrasında saxlanılması haqqında Elmi Şuranın qərarına baxmayaraq, təyinatla kəndə getməyə üstünlük verir.

Beləliklə, Sərvər Nəriman oğlu 1962-1970-ci illərdə Qusar rayonundakı Şirvanovka regional xəstəxanasında həkim, sonra isə baş həkim vəzifələrində çalışır, burada xəstəliklərlə mübarizənin praktik yollarını dərindən mənimsəyir, yüzlərlə insanın sağlamlığının bərpası, bir çoxunun isə ağır xəstəliklərdən xilas edilməsi, bəzilərinin yenidən dünyaya qaytarılması üçün bilik və qabiliyyətini əsirgəmir.

Xatırladaq ki, o dövrdə Şirvanovka regional xəstəxanası Nabran, Yalama, Şirvanovka və Samur qəsəbələri də daxil olmaqla, Azərbaycan-Dağıstan sərhədi boyunca iyirmidən çox kənd və yaşayış məntəqəsinə tibbi xidmət göstərirdi. Sərvər Alimetov baş həkim işlədiyi yeddi il ərzində həmin tibb müəssisəsində peşəkar kollektiv formalaşdıra bildi, gərgin təşkilatçılıq işi sayəsində diaqnostika, müalicə və profilaktika sahələrində yüksək nəticələr əldə edildi, uşaq ölümü faizi xeyli aşağı endirildi, Nabran turizm bazasında tibbi xidmətin səviyyəsi yaxşılaşdırıldı.

Bütün bu fəaliyyətinə görə, Qusarda savadlı, hər cür xəstəliyin öhdəsindən gəlməyi bacaran bir həkim kimi tanındı, hörmət qazandı, adı el-obada məşhurlaşdı. Belə bir zamanda vaxtilə institutda ona dərs deyən müəllimləri, həkim dostları Bakıya qayıdıb elmlə məşğul olmağın gərəkliliyini məsləhət bildilər.

Səhiyyə sahəsində zəngin praktik təcrübə qazanan Sərvər doktor 1970-ci ildə Bakıya qayıdaraq, Azərbaycanda kardiologiyanın banisi sayılan akademik C.M.Abdullayevin Tibb İnstitutunda rəhbərlik etdiyi hospital-terapiya kafedrasında aspirant kimi fəaliyyətə başlayır. İki il sonra isə gərgin elmi axtarışların nəticəsində "Öd kisəsi və ödçıxarıcı yolların xəstəliklərində su və elektrolit mübadiləsinin dinamikası" mövzusunda alimlik dərəcəsini uğurla müdafiə edir. Bundan sonra o, hospital-terapiya kafedrasında assistent, elmi işlər üzrə dekan müavini vəzifələrində çalışır, eyni zamanda, ictimai işlərdə fəallıq göstərir. Sonrakı dövrdə isə internatura şöbəsinin müdiri, respublika Tibbi-Məhkəmə Ekspertizası üzrə terapevt-ekspert və digər məsul vəzifələrə irəli çəkilir.

1976-cı ildə Tibb Universitetinin daxili xəstəliklər kafedrasının dosenti vəzifəsinə seçilən alim 1977-1980-ci illərdə Əlcəzairdə xüsusi tibbi ezamiyyətdə olur. Həmin illərdə o, Əlcəzair, Macarıstan, Bolqarıstan, Rusiya, Yaponiya və başqa ölkələrdə keçirilən bir çox elmi konfrans və simpoziumlarda fəal iştirak edir, dünya tibb elmi mütəxəssisləri qarşısında özünün elmi uğurları ilə bağlı hesabatlar verir.

S.Alimetov 1998-ci ildə "Xroniki ürək çatışmazlığında hemodinamik və homeostaz pozğunluqlarının xüsusiyyətləri və korreksiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1971-ci ildən Azərbaycan və Rusiya terapevtlər, kardioloqlar cəmiyyətlərinin üzvü olan alim Türkiyə, Rusiya, Orta Asiya, Avropa və Amerika ölkələrində çap olunan onlarla elmi məqalənin, 300-dən çox elmi işin, 50-dən çox kitabın, o cümlədən 20-dən çox dərsliyin, elmi-praktik vəsaitin, monoqrafiyanın, metodik tövsiyənin, 7 səmərələşdirici təklifin müəllifidir. Tibb Universitetində fəaliyyət göstərdiyi 50 il ərzində yüzlərlə tələbə, gənc əməkdaş və dissertantın elmi işlərinin yerinə yetirilməsində və formalaşmasında onun yaxından köməyi olub.

"Qızıl Qələm" media və "İbn Sina" beynəlxalq mükafatları laureatı olan S.Alimetov 2005-ci və 2019- cu illərdə "İlin ən yaxşı tədqiqatçı alimi" sayılıb.

Səmimi insan, qayğıkeş valideyn, bacarıqlı həkim, məhsuldar alim, yorulmaz müəllim S.Alimetov bu gün də doğma universitetdə tələbələrə tibb elminin sirlərini həvəslə öyrədir.

Sonda professor Sərvər Alimetovun bir fikrini də oxucuların diqqətinə çatdırmaq istərdik:-Ulu öndərimiz Heydər Əliyev deyirdi ki, səhiyyə cəmiyyət və dövlət üçün çox gərəkli bir sahədir. Ona görə də hər bir insan həkimə hörmət edir, səhiyyə işçilərinə həssaslıqla yanaşır. Həkimlər də sağlamlığın keşiyində dayanmaqla, insanlara tibbi yardım göstərməklə, onları müalicə etməklə özlərinə böyük mənəvi hörmət, ehtiram qazanırlar.

Azərbaycan səhiyyəsinin müstəqilliyimizin ilk illərindəki və indiki vəziyyətinin müqayisəolunmaz şəkildə dəyişdiyini kimsə inkar edə bilməz. Məlumdur ki, müstəqilliyimizin ilk illərində müharibə şəraitində yaşayan ölkəmiz iqtisadi çətinliklər içində boğulurdu. Xüsusilə səhiyyədə vəziyyət ürəkaçan deyildi. Lazımi tibbi avadanlıqlar, dərman çatışmırdı. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi və nüfuzu sayəsində beynəlxalq qurumlar Azərbaycana kömək etməyə başladılar. Ardıcıl surətdə həyata keçirilən profilaktik tədbirlər sayəsində Azərbaycanda yoluxucu xəstəliklərin yayılmasının qarşısı alındı.

Ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin diqqət və qayğısının nəticəsində Azərbaycanın səhiyyə sistemində aparılan uğurlu islahatların, tibb müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsinin, təchizat və kadr hazırlığı ilə bağlı görülmüş işlərin nəticəsini bu gün hər birimiz öz həyatımızda hiss edirik. Görülən tədbirlər əhalinin səhiyyə sisteminə inamını getdikcə artırır.

***Vaqif BAYRAMOV,***

# Rusiya-Azərbaycan sərhədi ilə bağlı tapşırıq

***Rusiya Prezidenti Vladimir Putin Rusiya və Azərbaycan vətəndaşlarının sərhədi keçmələri üçün Azərbaycanın səlahiyyətli orqanları ilə qarşılıqlı fəaliyyət mexanizminin işlənib hazırlanması barədə tapşırıq verib.***




**Rusiya** Prezidenti Daxili İşlər Nazirliyi, Federal Təhlükəsizlik Xidməti, Xarici İşlər Nazirliyi, Rusiya İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı üzrə Federal Agentliyi və Dağıstan Respublikasının hökumətinə Rusiya və Azərbaycan vətəndaşlarının sərhədi keçmələrinin təşkili üçün Azərbaycanın səlahiyyətli orqanları ilə operativ qarşılıqlı fəaliyyət mexanizmi işləyib hazırlamağı tapşırıb.

Eyni zamanda, Vladimir Putin epidemioloji vəziyyəti nəzərə alaraq normalara riayət olunmasının vacibliyini qeyd edib.

*//Qafqazinfo*

# КЕСИБРИН ДАЯХ ХЬАЙИ ЖЕНГЧИ ШАИР




***Алай йисуз лезги эдебиятдин Къуба патан векилрикай сад тир Кесиб Абдуллагь (Абдуллагь Саруханов) дидедиз хьунин 145 йис тамам жезва. Вичиз «Кесиб» тахаллус хкягъай, кесиб къатарин даях тир, женгчи шаир Абдуллагь 1875-йисуз виликан Къуба уезддин Манкъулидхуьре лежбердин хизанда дуьнядиз атана.***

***Чеб таяр-туьшер тир аданни чIехи СтIал Сулейманан жегьил йисарин кьисметра сад-садаз ухшарвилер пара ава. Кьведни фад етим амукьна, кьведани яргъал йисара дуьнядилай цIар ягъана «бахтунихъ экъвена», батраквални авуна, лежбервални, фялевални. Анжах вичихъ хци зигьин авай Абдуллагьа гъвечIи чIавуз кIелиз-кхьиз чирна.***

***Абдуллагьаз бахт жагъаначтIани, уьмуьрдин зурба тежриба кIватIна, заманадин нагьахъвилериз акси вичин ван хкажна. Ам жаван берейрилий аямдин дерди-беладикай шиирар туькIуьруьз гатIунна. Шаирдин «Приставдин бармак», «Туьрез», «Зулун марф», «Дуьняда», «Экуь дуьня» ва маса эсеррай аквазвайвал, ада зегьметчи халкьдин векил хьиз майдандиз экъечIна вичи уьмуьрзавай гьахъдуван авачир девирдиз лянетзава. Вири кесибри хьиз Абдуллагьани советрин власт рикIин сидкьидай кьабулна. Ада вичин шиирар синфи душмандиз аксина элкъуьрна. Белки гьа и кардини адан уьмуьрдал эхир эцигна.***

***Абдуллагь кьейитIа мукьвал йикъара,***

***Вири лезгийрихъ хабар агакьара...-кхьей шаир хъеле гьатнавай кулакрин тапшуругъдалди 1934-йисуз инсафсузвилелди яна кьена.***

***Кесиб Абдуллагьан (адаз хуьре Буьркьуь Абдуллагьни лугьудай) шиирар сифте чи ч?ехи шаир Забит Ризванова к?ват? хъувуна. Адан эсеррикай литературавед алимар тир Гьажи Гашарова, Къурбан Гьакимова, Регьимхан Клебеханова, Сейфеддин Бедирханова ва масбуру илимдин макъалаяр кхьенва.***

***Кесиб Абдуллагь Къуба патан лезги эдебиятда Нуьреддин Шерифовахъ, Эмираслан Гъанидихъ, Эмираслан Аслановахъ галаз са жергеда акъвазнавай классикрикай сад я. Адан эсерар тарсунин ктабрик акатнава, мектебра чирзава.***

*Кесиб Абдуллагь*

## КЕСИБВАЛ

Садра хьайтIан вуна чалай
Гьил къачу кван, кесибвал.
ТIимил-тIимил хкудзава
Вуна чи чан, кесибвал.

Дад-минет хьуй чалай алат,
Ивид чанахъ, пехъи жаллат!
Авач маса гьам-хажалат
Валай залан, кесибвал.

Абдуллагьа лагьай гьар гаф
Дугъруди я кватчир хилаф.
Валай залум, валай ажлаф
Авач душман, кесибвал.

## ПУЛ АВАЙ КАС

Вучиз фани дуьняда
Хан жеда пул авай кас?
Чидач вучиз виридаз
Кан жеда пул авай кас?!

Хуьре авай бапIахрин
Сагьиб хьайла ятахрин:
Бязи-бязи ялтахрин
Чиан жеда пул авай кас.

Абдуллагьан вилик кваз
Вуна зере гумир наз,
Ви пис крар виридаз,
Ван жеда пул авай кас!

## АКУНАЧ

И дуьня вуч залан хьанава
Заз гьич дугъри кар акунач.
Кесиб къвазна бегдин вилик
Рахаз ихтияр акунач.

Акъатзава фуахъ зи вил,
Агакьзавач адахъ зи гьил,
Сад шехьзава, гатаз мет-кьил,
Лежбер бахтавар акунач.

Я лугьуда инсанар сад,
Бес вучиз чи уьмуьр туш шад?
КIвалахайтIан рекьир кьван мад
Зегьмет-багьдин бар акунач.

Абдуллагьан дерт я чIехи,
Девлетлуяр хьанва пехъи.
Гатун кьиляй чулда некьи,
Зулухъ багъда нар акунач!

## ХЬАНАВА ЗУН

Закат гудалди хуьруьн фекьидиз
ЗатI амач кIвале талан хьанава зун,
Авай са ккални кьена гатфарихъ
Шур жагьин тийиз яван хьанава зун.

И заманада тек кьил хуьз тежез
Уьмуьрни физва хуьрера экъвез.
Зегьер хьиз туькьуьл я лугьуз зи мез
Бязи ксариз залан хьанва зун.

Гьайиф аялвал, чир хьанач кьимет,
КьайгъуI жедачир гватайтIани мет.
Гила вад йис я, кьахьна гьуьрмет,
Яру кIунтIунлай аскIан хьанва зун.

Вучда уьмуьрдикай дад къачуз тежер,
Рекьиз хьайтIани яд къачуз тежер.
И язух ччанни фад къачуз тежер
Азраилдизни душман хьанва зун.

Абдуллагь кьейтIа мукьвал йикъара,
Вири лезгийрихъ хабар агакьара,
КIвачер кьатIнава, авачир ракьара
Суза ийизвай жейран хьанва зун.

## ВУЧДА ВУНА

Нянин чIвуз, булахд кьилел
Яр атайла вучда вуна?
Милайимдиз хъуьрез-хъуьрез
Гаф атIайла вучда вуна?.

Сад лагьана бахтсузвиляй,
Гъуьрчехъанд кард катна гьиляй,
Хьуьруьн кьене элдин виляй
Аватайла вучда вуна?
Аваз чина шадвилин хьвер,
Ирид йисуз хвейи рекьер,
Гьиляй мукьва жезвай мехьер
Акъатайла вучда вуна?

Абдуллагьаз тийижир кар,
Куьне чира, азиз дустар.
Пис ксарин жергедик тIвар
Акатайла вучда вуна?.

## АЯЛРИЗ

Къваз кIвалин юкьвал-акъваз хиялриз,
Вуч гун лугьуз къе жуван аялриз.
Килигир кьван мад текнедиз чи буш,
Бес вуч лугьун яван аялриз?

Къуншидин кIвале дулма-аш ава,
Гьерен як галай гьа бузбаш ава.
ТIанурдин фуни бул лаваш ава,
Бес вуч лугьун за масан аялриз?

Нисидин ккIал, ахтармадин кIус
Лагь, кьатухни нек акурди я мус?
Тугъадиз акьван авачиртIа кус,
Аквадачирни, лагь, хьсан аялриз?

КIвалерал пехьер ацукьрай, душман,
Вунни къе зун хьиз амукьрай, душман.
Ви дувандик гьахь галукьрай, душман,
Уьмуьр жедайвал асант аялриз!

## ХАБАР КЬАДАЧ

Чидач дустар рахада паб,
Булушкадкай, шалдикай.
Хабар кьадач залумди гьич,
Къе зун авай гьалдикай.

Низ чида кьван кесибдин гьал,
Рагь алай югь мичIи я.
Кьиф къугъвазва кандуда зи,
Ам дагъар хьиз ичIи я.

Шал канидан жибинда пул
НикIера къуьл жедачни?
Дем канидан гьилера звер
КIвачера къуьл жедачни?
Къваз тавуна рахада паб,
Булукшадкай, шалдикай.
Хабар кьадач садани гьич
Абдул авай гьалдикай!

# ВИЧ АМАЧ, МАНИЙРИ РИКIЕР ШАДАРЗАВА

***Дагъустандин Халкьдин артист Омар Абусалатан хва Аюбов дидеди хайидалай инихъ 95 йис тамам хьана.***

Омар Аюбов 1925-йисан февралдин 24-аз КцIар райондин Агъа Лакар хуьре дидедиз хьана. Аял чIавалай адан рикI музыкадал алай. ЩIусад йис тамам хьайила, Омара вичиз тар ягъиз чирнай.



1951-йисуз Омар Аюбов Махачкъалада Петр Чайковскидин тIварунихъ галай музучилищедиз (1965-йисалай ам Готфрид Гьасанован тIварунихъ гала) гьахьзава. Ина ада тардин классдай Хизгил Ханукаеван гьилик чирвилер къачузва. 1955-йисуз училище лап хъсан къиметралди акьалтIарзава. Гьеле студент тир вахтунда, 1954-йисуз, Омар Абусалатан хва Дагъустандин манийрини къуьлерин ансамблдиз ва Даградиокомитетдин халкьдин музыкадин алатрин оркестрдиз тарчивиле кIвалахал кьабулна.



*Лугьузвайди Рагьимат Гьажиева, тар язавайди Омар Аюбов*

*Шикил "Алам" журналдай къачунва.*

1960-йисуз композиторди Москвада кьиле фейи Дагъустандин литературадин ва искусстводин декадада иштиракна. Ада училищедa тарсарни гуз хьана. Ана кIвалахай йисара Омар Аюбован гьиликай цIудралди бажарагъ авай музыкантар, манидарар, композиторар хкатна.

Композитордин манийрин арадай чавай Шагь-Эмир Мурадован чIалариз кхьенвай "Гьикьван хъсан я", "Индиядин руш", Алирза Саидован чIалариз кхьенвай "Вучиз?", "ФатIима", "Дояр-ка Жейран", "НуькIер базар", Сажидин Саидгьасанован чIалариз кхьенвай "Вун накь вучиз атаначир?" ва гзаф масабурун тIварар кьаз жеда. А манияр искусстводин халис жавагьирриз элкъвенва. Абур Ризабала Агъабалаева, Бурлият Элмурзаевади, Рагьимат Гьажиевади, Роза Максумовади, Гьава Аллагьвердиевади ва гзаф маса машгьур манидарри тамамариз хьана.

Бажарагъ авай композитор ДАССР-дин Лайихлу артист (1960-йис), ДАССР-дин Халкьдин артист (1970-йис) лагьай гьуьрметдин тIвarariз ва гзаф грамотайриз лайих акуна.

Омар Аюбов 2005-йисан мартдин 6-аз 80 яшинда аваз чи арадай акъатна. Амма адан гуьзел манийри кьенин юкъузни чи рикIер шадарзава.

***Эдуард АШУРАГЪАЕВ***

# САДАЗНИ УХШАРВАЛ АВАЧИР СЕНЯТКАР

Лезгийрин рикI алай сеняткар, вичи теснифавур чIаларни авазар халкьдин меце гьатнавай Мирзебегов Нуьсрет Черкесан хва 1940-йисан майдин 24-даз КцIар райондин ПIитIишкIеле хьуьре дидедиз хьана. Адан аялвал дяведин йисариз туьш аватна. Буба дяведа гьелек хьайила мукьвабуру Нуьсретни адан чIехи стха Фергьад Мердакандин аялрин кIвализ гана. Фергьад аскервилиз фидалди стхаяр санал хьана.



Вичихъ шаирвилинни ашукьвилин алакьунар авай жегьил Нуьсрет 14 йиса авайла ам Шушадиз, ашукьрин гьуьжетунрин мярекатдиз ракъурнай. Ина ам чIехи сеняткар Ашукь Шемширахъ галаз таниш хьана. Адан алакьунар акур ашукь Шемшира и четин гада шакIуртвиле кьабулна ва вичихъ галаз Келбежер райондин Агъдабан хуьруьз тухвана, адаз ашукьвилин сирер чирна. Лезги ва азербайжан чIаларал шиирар кхьиз, абуруз авазар теснифиз, чуьнгуьрдал тамамарзавай Нуьсретахъ сегьнедин, жемятрин гуьгьуьлар шадардай са шумуд жуьредин алакьунарни авай.

Ашукь Шемширавай рухсат къачур Нуьсрета Азербайжандин гзаф районра, хуьрера экъвена элдиз вичин гьунар къалурнай.

Урусрихъ ихьтин мисал ава : "Жуван ватанда пайгъамбарар жедач". Лезгийри лугьуда: "Жуван гьиле авай лаш тIурар алаз аквада".

Ашукь Нуьсрет чавай яргъал хьунивай адан чка ичIиз амайди чна мадни деринддай байихзава. Са чIавара лезгийрин чилерал Ашукь Нуьсретан авазар чкIидай:

***Ашукь Нуьсрет, килиг кардиз,***
***Муьгьуьббатдин и икьрардиз:***
***Чуьнгуьр кьуна жуван ярдиз***
***ТуькIуьрдай са хьсан чIал хьуй!***

Адавай чIехи сегьнейра, телестудийра кьилди концертар гуз хьанач. Ашукь Нуьсрета хайи халкьдин гьвечIи мехъеррик-манидин, чIалан кьадир авайбурун арада чьнгуьр хурал кьадай.

Яраб вири талантрин кьисмет гьа икIа туькьуьл я жал? Зурба ашукьди уьмуьрдин чIехи пай вичи тарифарзавай КцIарилай къерехра акъудна. Са културадин кIвале, са ансамблдик и чIехи талантдиз кIвалах жагъанач. Гьавиляйни ада Къазахстанда техилар гвена, Саратовда кIвалер эцигна, Дагъустанда манияр лагьана. Эхирни ажалди эверайла, Ватандиз хтана.

"Ашукь Нуьсрета вичин уьмуьрда гьикьван чIалар туькIуьрнатIа, малум туш-кхьизва шаир-журналист Гьилал Аскерова- Тайин тирди ам я хьи, ада вичин вири чIалариз манияр кутIунна. Адан манияр, гьакIни дастанар ашукьрин сенятдин вири тIалабунриз жаваб гузвай эсерар я, гьа са чIавуз абур садни я къунши халкьдин, яни лезгийрин са ашукьдинни са манидизни ухшар туш; абурухъ чпин тикрар тежер чIун ава. Ашукь Нуьсретан чIехивилин кьилин делилрикай садни гьа им я."

Райондин меркездин куьчейрикай садал КцIариз "Диде Ватан лагьай" устад ашукьдин тIвар хьуни ам канибурун рикIер секинарзава.

***"КЦIАР"***

# KARANTİN REJİMİNİN TƏLƏBLƏRİNƏ UYĞUN

**Pandemiya** dövründə rayon mədəniyyət mərkəzi və filialları “Evdə qal, evdə yarat”, "Yaradıcılığı evdə öyrən”, " Evim-yeni iş yerim” layihələri üzrə 450-dən çox video-










çarx hazırlamışdır. 250-dən çox videoçarx facebook paylaşım üçün göndərilmiş, Xaçmaz Regional Mədəniyyət İdarəsinin facebook səhifəsində 4 online canlı konsert yayımlanmış, Mədəniyyət Nazirliyinin "Mədəniyyətimizi virtual məkanda tanıdaq" layihəsi üzrə 4 videoçarx hazırlanmışdır.

**Qusar** Rayon Heydər Əliyev Mərkəzi də öz iş fəaliyyətini onlayn metodu ilə davam etdirmişdir. Bu müddət ərzində ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin öyrənilməsi və təbliği istiqamətində mərkəzin əməkdaşları Lamiyə Abdullayeva və Fidan Kazımzadənin hazırladıqları videoçarxlar youtube və facebook səhifəmizdə yerləşdirilmişdir.

**Öz** iş fəaliyyətini onlayn yolu ilə davam etdirən Qusar Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları "Xalq yaradıcılığı", "Milli mətbəx", "Bacarıqlı əllər", "Muzeyə virtual ekskursiya", "Fədakar həkimlər" mövzularında və pandemiya dövrünə təsadüf edən əlamətdar və tarixi günlərlə bağlı videoçarxlar hazırlamış, muzeyin rəsmi facebook səhifəsini aktiv saxlamış, ümumilikdə 160 paylaşıb edilmiş, 26 videorolik yerləşdirilmişdir.

**Rayon** uşaq incəsənət məktəbinin müəllimləri şagirdlərlə onlayn dərslər aparmış, şagirdlərin fəaliyyətini əks etdirən videoçarxlar hazırlamış, onlayn konsertlərlə çıxış etmiş, Mədəniyyət Nazirliyi və Xaçmaz Regional Mədəniyyət İdarəsi tərəfindən keçirilən müsabiqələrə qatılmışlar.

**Koronavirusla** mübarizə əleyhinə xüsusi karantin dövründə bütün mədəniyyət müəssisələri kimi rayon MKS-nə daxil olan kitabxanalar da öz fəaliyyətlərini virtual qaydada davam etdirərək, çoxsaylı istifadəçilərə kitabxana xidməti göstərmişlər.

Kitabxana işçiləri və fəal oxucular tərəfindən Mədəniyyət Nazirliyinin “Evdə qal, kitab oxu” layihəsi çərçivəsində müntəzəm olaraq müxtəlif mövzularda yeni kitabların təqdimatları, müzakirələr, mütaliələr, şeirlərin oxunması, “Evdə qal, evdə yarat” layihəsi çərçivəsində isə istifadəçilərə müxtəlif əl işləri və onların hazırlaması qaydaları nümayiş etdirilmişdir.

Fəal oxuculara mərkəzi kitabxananın və Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəhbərliyi tərəfindən fəxri fərman və hədiyyələr verilmişdir.

**Qusar** Dövlət Rəsm Qalereyasının kollektivi də fəaliyyətini yeni tələblərə uyğun quraraq ulu öndər Heydər Əliyevin doğum günü, Böyük Vətən müharibəsində Qələbəmizin 75 illiyi ilə bağlı hazırladıqları ekspozisiyaları onlayn qaydada nümayiş etdirmişdir.

*“QUSAR”*

---

Qusar rayonun Gədəzeyxur kəndində yerləşən "Ariadna" MMC-yə məxsus Əzizov Nasir Hüseyn oğlunun adında olan 4700002131 nömrəli VÖEN ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar rayon Tİ və MHQ idarəsi tərəfindən Qusar şəhəri Heydər Əliyev prospekti, 79 ünvanında yerləşən Aşurlı Gülpəri Fərhad qızına və Aşurlı Əfqan Aşur oğluna məxsus fərdi yaşayış evinə dair işlənmiş 42 reyestr nömrəli qeydiyyat vəsiqəsi ***itdiyi üçün*** etibarsız sayılır.

ƏMDK Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Xaçmaz Ərazi İdarəsi tərəfindən 02.04.2013 tarixdə Qusar rayonunun Yuxarı Ləyər kəndində Babayeva Nurcahan Minbala qızının adına verilmiş qeydiyyat nömrəsi 2813004514, reyestr nömrəsi 301013007558, seriya RX №0159643 olan çıxarış sənədi ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 25.12.1999-cu il tarixli 14/3 saylı qərarı ilə Qusar rayonunun Gədəzeyxur kənd sakini Muradova Venera Rəhman qızının adına verilmiş JN 380, Kod 30107018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 14.07.2000-ci il tarixli 08/04 saylı qərarı ilə Qusar rayonunun Gican kənd sakini Vəlimətov Şamil Həmdulla oğluna və ailə üzvlərinə verilmiş JN 0064, Kod 30112028 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 14.07.2000-ci il tarixli 08/04 saylı qərarı ilə Qusar rayonunun Gican kənd sakini Vəlimətov Həmdulla Həmdulla oğluna və ailə üzvlərinə verilmiş JN 134, Kod 30112028 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 12.05.1998-ci il tarixli 7/6 nömrəli qərarı ilə Qusar rayonunun Yuxarı Zeyxur kənd sakini Hacıxanov Rauf Hacıxan oğluna və ailə üzvlərinə verilmiş JN 209, Kod 30100028 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon Məhkəməsinin 20 iyul 2005-ci il tarixli 2-369 a saylı Qətnaməsi ilə Qusar rayonunun Yuxarı Zeyxur kənd sakini Cəfərov Ənibala Hacıbala oğluna verilmiş JN 336, Kod 30100028 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 21.07.98-ci il tarixli 12/4 saylı qərarı ilə Qusar rayonunun İmamqulukənd kənd sakini Nəzirova Nəcabət Talıb qızına verilmiş JN 708, Kod 30114018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 29.10.1997-ci il tarixli 15/2 nömrəli qərarı ilə Qusar rayonunun Qullar kənd sakini Musayeva Aniyat Qazəhməd qızının adına verilmiş JN 0035, Kod 30124028 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar rayonunun Əniğ kəndində yerləşən Nəzərəliyev Carulla İsmilla oğluna məxsus fərdi yaşayış evinə dair Qusar rayon Tİ və MHQ idarəsi tərəfindən işlənmiş 48 reyestr nömrəli qeydiyyat vəsiqəsi ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin 16.06.1998-ci il tarixli 10/7 nömrəli qərarı ilə Qusar rayonunun Aşağı Ləyər kənd sakini Şirinova Mehparə Cəlil qızına və ailə üzvlərinə verilmiş JN 204, Kod 30100018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

## Çiləmələr aparılacaqdır

Cağar, Uqur və Piral kəndlərinin ərazilərində yerləşən mənə məxsus biçənək sahələrində və kartof tarlalarında kimyəvi dərmanlarla çiləmələr aparılacaqdır.

Vətəndaşların mal-qarası və ev quşları arasında tələfat olarsa, cavabdehlik daşımıram.

*Əkbər Saruxanov, fermer Cağar kəndi*

Qusar Rayon AİK-nin 11.12.1997-ci il tarixli 17/2 saylı qərarı ilə Qusar rayonunun Xürel kənd sakinləri Kərimova Fatimə Seyfəddin qızına və Hacımuradova Yeganə Sultan qızına verilmiş JN 142, Kod 30103038 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı ***itdiyi üçün*** etibarsız sayılır.

Abşeron MBTİ Qusar rayon sahəsi tərəfindən Qusar şəhəri M.Paşayev (Krupskaya) küçəsi, 6 ünvanında yerləşən Əskərov Şixsəməd Zeynal oğluna məxsus fərdi yaşayış evinə dair 05.12.1988-ci ildə verilmiş 349 reyestr nömrəli qeydiyyat vəsiqəsi ***itdiyi üçün*** etibarsız sayılır.

Qobustan rayon sakini Rəcəbov Samir Qardaşxan oğluna 31.08.2016-cı il tarixdə Bakı şəhər “N” saylı hərbi hissə tərəfindən verilmiş MN 0030067 nömrəli hərbi vəsiqə ***itdiyi üçün*** etibarsız sayılır.

Qusar Rayon AİK-nin qərarı ilə Qusar rayonunun Hil kənd sakinləri Rzayeva Sədifə Balabəy qızının, Rzayeva Ulduz Adik qızının, Rzayeva Rəna Müşviqovnanın adına verilmiş JN 243 F **və** 243 G nömrəli Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr ***itdiyi üçün*** etibarsız sayılır.

---

# Лезги шаирдин ктаб Италияда чап хьана

ктабрин тIакI

**Чи** ватанэгьли Билал Адилован тIвар поэзиядал рикI алайбуруз хъсан таниш я. Ам лезги шииириятдин ван милли часпаррилай къерехдиз акъудиз алакьнавай кхьирагрикай сад я.




Са шумуд ктабдин автор тир шаирдин эсерар къецепатан ульквейрин жуьреба алманахрик, 355 шаирди иштиракзавай конкурсда гъалибвал гъайи "Лекьрез" шиир «Виридуьнядин Парнас» антологиядик акатнава.

Урусатдин Кхьирагрин КIватIалдин дипломдиз, Лермонтован тIварунихъ галай мукафатдиз лайих хьайи чи ватанэгьли, алатай йисуз Италияда кьиле фейи «Парнас-Анжело ла Веккя» Виридуьнядин поэзиядин конкурсдинни гъалиб, Крымда тешкилнавай "Интеллигентный сезон" тIвар алай литературадинни музыкадин фестивалдин иштиракчи хьайи шаирди нубатдин агалкьунивди канибуруз хвешивал бахшнава. Италиядин Агриженто шегьердин «ed.META» чапханада лезги шаирдин «Дагъларин романтика» тIвар алай ктаб чапдай акъатнава.

ЦIийи ктабдин редактор профессор Каложеро Ла Веккиа, шиирар италиядин чIалаз элкъуьрнавайди Беларус Республикадин Кхьирагрин КIватIалдин ва Виридуьнядин Кхьирагрин Гилдиядин уьзвуь Олга Равченко, проектдин координатор филолог Раида Ревшан я.

Чна Билал муаллимдиз мадни кьакьан синер, цIийи агалкьунар тIалабзава.

# Мадни са цIийи гафалаг

**Бакудин** «Азербайжан» чапханада «Аламдин улубар» сериядик кваз нубатдин-цIерид лагьай ктаб чап хьанва. Им, чIалан хиле къад йисаз мукьва тедкъикъатар тухузвай Юсиф Халилован «Лезги чIаланни азербайжан чIалан гафалаг» я. Вад йис вилик и автордин Жавид Агьмедовахъ галаз санал гьа ихтин тIвар алай ктаб акъатнай. ЦIийи гафалагда 17000-ав агакьна кьилин гафар, абуруз талукь мисалар, 700-ев агакьна бубайрин мисалар, гьакIни мягькем ибараяр гьатнава.




«- 500 чиникай тир и гафалаг икьван чIавалди акъатнавай вири гафалагрилай тафават авайди я.- кхьизва адан редактор, Камран Къурбаналиева- Къеневай гафарин пара ва тIимилвилиз килигна ваъ, а гафар патан чIаларин тасъирдик тахьунин жигьетдай. Авторди и гафалагда кIватнавай вири гафар хайи чIалан къайдайриз муьтIуьгъ хьанвайбур я. Чара чIаларай атанвайбурни кваз.

Патан чIаларай гафар къачун тавунвай са халкьни авайди туш. Амма жуван чIала а гафар аваз-аваз чара чIаларин гафарикай чIалаз муьтIуьгъар тавуна менфят къачуни жуван чIал гуьнгуьнай акъудда. И гафалагда авторди жезмай кьван жуван гафар авай чкадал патан гафарикай менфят къачунвач.»

Авторди чи республикада, гьакIни Урусатдилай къерехда уьмуьрзавай лезгийривай регьятдаказ менфят къачуз жедай жуьредин къайдаяр хвена цIийи кIалубдин гафалаг арадиз гъанва.

Шак алачиз, цIийи гафалагдин кьетIенвилерикай чIалан пешекарри чпин фикирар лугьуди. Анжах ам, дидед чIал чириз канзавайбуруз бакара къведайдахъ чIалахъ я чун.

*“КЦIАР”*

---

“Qusar” qəzetinin baş redaktoru Vidadi Sevzixanov yazıçı-publisist Elbrus Şahmara həyat yoldaşı
**Raya Musa qızının**
vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

Qusar GEM-nin direktoru Nadirşah Şirinov yazıçı-publisist Elbrus Şahmara həyat yoldaşı
**Raya Musa qızının**
vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

Nadirşah Şirinov və Qusar GEM-nin kollektivi iş yoldaşları Gülxarə Müzəffərovaya atası
**Məcvulla Əmrulla oğlunun**
vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

Baş redaktor Vidadi SEVZİXANOV

Hesab № “Kapitalbank”da: AZ 88 AİİB 33010019444800204148. VÖEN 4700063311.

Tiraj 500 Sifariş 983 Qiymәti sərbəst.

“Qusar”ın kompüter mərkəzində yığılaraq səhifələnib, “Azərbaycan” Nəşriyyatında çap olunub.

Ünvan: AZ.3800, Qusar şəhəri, Fəxrəddin Musayev küçəsi 41.
☎☎ 385-23-83; 385-23-86; qusar-redak1@mail.ru